**Tarix və onun problemləri, №3 2010**

**QULİYEVA NURİDƏ**
***«Azərbaycanşünaslıq» ETM-in böyük elmi işçisi,***
***tarix elmləri namizədi***
***e-mail: nuridagulu@yahoo.com***

# ŞƏKİ KƏLAĞAYI İSTEHSALININ XÜSUSİYYƏTLƏRİ

**Açar sözlər:** Şəki, ipək, kəlağayı, texnologiya

**Ключевые слова:** Шеки, шелк, келагаи, технология

**Key words:** Shaky, silk, kalaqayi, technology

Barama məlum olduğu kimi, ipəkçiliyin xam malıdır. İpək sənayesinin olmadığı keçmiş tarixi şəraitlərdə xam barama bəslənməsinin kütləviliyinə ehtiyac vardırmı? O, xalq tərəfindən hansı məqsədlərlə alınıb-satılır, emal edilirdi? Şübhəsiz ki, ipək sapdan toxunan parçalara, baş örtüklərinə, digər geyim və məişət ehtiyaclarına tələbat gücləndikcə baramaçılıqla daban-dabana ipəkçilik də inkişaf edir. Onun emalında yeni üsullar, yeni istehsal münasibətləri yaranırdı. Bu ilk növbədə xam baramadan ipək sapı açılması kimi gecikdirilməsi mümkün olmayan bir işin vaxtında görülməsi ilə bağlı idi. Belə xam mal çox qaldıqda öz keyfiyyətini itirə bilərdi. Məhz bu səbəbdən də xalq özü baramının ilkin emalının qeydinə özü qalmağı, sövdəgarı, taciri, ipəkçiliklə məşğul olan xırda kustar sənaye sahiblərini gözləməyi üstün tuturdu. Kümdarların bir çoxunun evində sadə quruluşlu baramadan sap açmaq üçün «Ocaq baraması» adı ilə xatırlanan ibtidai qurğular olurdu. Bu qurğular odunla yandırılan ocaqdan, tiyan və ya iri mis qazandan, baramadan açılan ipək sapı kələfə sarımaq üçün ayaqla hərəkətə gətirilən ağac çarxdan ibarət olurdu. Ocağa qoyulmuş tiyan və ya qazandakı su qaynar hala gəldikdə oraya xam barama tökər, üç-dörd baramanın hər bir ucunu bir tel halına gətirib çarxın fırlanması ilə onu kələfə sarıyardılar. Kələflər çarxdan çıxarıldıqdan sonra onu davelçilərinə satar və ya öz davellərində burub, qoşalaşdırıb istənilən yoğunluqda parça və ya kəlağayı toxutmağa yararlı sap halına gətirilərdi. Belə bir imkan keçən əsrin ortalarında Şəkidə baramaçılığın sürətli inkişafına səbəb olmuşdu. Bu özlüyündə Şəkini Şərqin iri baramaaçan ipək sapı buran, ipək parça və kəlağayı toxuculuğu, boyaqçılığı ilə məşğul olan mərkəzə çevirməyə geniş üfüqlər açmışdır. Bu isə, şəhərdə və kəndlərdə iri kümxanalar təmərküzləşmiş və mexanikləşdirilmiş baramaaçan, ipək buran, parça toxuyan, boyaq-bəzək vuran sexlərin və kiçik ölçülü fabriklərin ildə-ilə artmasına imkan vermişdir. Yerli ipək sənayesi sahibkarları ilə yanaşı Şəkiyə qazanc dalınca Fransadan, İtaliyadan işbazlar axışıb gəlir, özlərinin daha mükəmməl sex və fabriklərini tikib işə salardılar. Beləliklə, xalq ipəkçiliyinin kustar üsulları ilə yarışan yeni formalı istehsalatlar bu bəhsləşmədə köhnəliyi kölgədə qoyurdu. Bununla belə xalq istehsal üsulu qalmaqda idi.

Ocaq baramaaçma üsulu ilə əldə edilən sap kələfləri, yuxarıda qeyd etdiyimiz kimi, davellərdə toxuculuq üçün gərəkli sap halına salınırdı.

Davellər ən azı 40-50 kvadrat metr sahəsi olan iri otaqda yerləşirdi. Oraya mərrə və çillə adlanan kustar el-oba dəzgahları qoyulurdu. Mərrənin gövdəsi, çarxları, mağaralar qoyulan qovşağı yerli agac materiallarından hazırlanırdı. Mərrənin oxuna çoxlu sapsarınma çarxları geydirilirdi və çarxlardan saplar lazımi sayda qoşalandırılaraq qarşıdakı mağaralara bərkidilir. Bu ardıcıllıqla çarxdakı kələfləri sapları mağaralara ilişdirilib qurtardıqdan sonra mərrənin anqırac adlanan dişli çarxlar və hərəkətedici qayışldar yerləşən hissəsi ayaq və ya əllə hərəkətə gətirildikdə çarxlar və mağaralar eyni sürət götürüb sapların çarxlardan mağaralara sarınmasını təmin edir. Fırlanmanın sürətindən asılı olaraq sap mağaralara sarındıqca eşilmə, burulma prosesi də gedir. Və beləliklə toxucu üçün lazım olan sapın hazır olmasının birinci mərhələsi başa çatır. İkinci mərhələ çillə hazırlayan dəzgahda tamamlanır. Mərrədə sarınan mağaralar çillə dəzgahının bir dəfədə 360-400 mağaranın fırlanmasını təmin edən qovşağına keçirilir. Mağaradakı sapların ucları qovşağın qarşısındakı mehpərə keçirilmiş, mexaniki

yolla hərəkət edən, eni iki metrə, diametri isə bir metrə yaxın barabana (diyircəyə) çillənin (əricin-osnovanın) lazım olan eninə uyğun ilişdirilir. Kəlağayı toxumaq məqsədilə hazırlanan çillə barabana sarındıqca hər beş metrdən bir çillənin saplarına çarpaz bağlanır ki, toxuma prosesində saplar dolaşmasın. Çillə barabanının iyirmi yeddi dəfə dövründən sonra toxucu dəzgahına salınmaq üçün çıxarılır, yenidən sarıma prosesi davam etdirilir.

Kəlağayı toxuculuğu üçün hazırlanan çillələrin (ariclərin) eni kəlağayıların nəzərdə tutulmuş eninə müvafiq qoyulur. Çirtmə kəlağayıları üçün 80x80 sm, digər kəlağayılar üçün isə 120x120 sm, 140x140 sm, 160x160 sm enində hazırlanır.

Çillə toxucu dəzgahlarında parçanın, kəlağayının əsas sap qovşağını təşkil edir. Bu qovşağın hazır məhsul halına salınması üçün dəzgahın sağa-sola hərəkət edən məkiki çillə saplarının bir gedişdə üstündən, qayıdışda isə altından hərəkət edir, beləliklə toxuma prosesində xam parça alınır. Belə parçalar boyadılır, güllənir və hazır məhsula çevrilir.

Xalq ipəkçiliyi ilə əlaqədar başqa məsələlər də vardır ki, bunlardan söz salmamaq yerinə düşməzdi. Çox təssüf ki, elmi və digər ədəbiyyatda xam baramadan açılan telə də, sonradan onun burulmasından alınan məhsula da «sap» deyilir. Nəzərə almaq lazımdır ki, baramaaçanlar açdıqları «sapa» sap deyil, ipək tel deyirlər. Tel hələ sap demək deyil. Bu tellər qoşalaşdıqdan, daveldə əyrilib buruldudqan sonra sap halına gətirilir.

Xalq ipəkçiliyi temiologiyasında ipək sapının neçə teldən və nə qədər burulma, əyirmə verdikdən sonra toxuculuq üçün sap halına gətirilməsi prosesindən çıxan məhsulu bir-birindən fərqləndirən göstəricilərinə «dünya» adı verilmişdir. İpək sapın kondisiyasının xatlq tərəfindən fərqləndirilən ifadəsi «dünya» hər hansı sapın texniki göstəricisini ifadə edir. İpək saplar xalq dilində 20-22 dünya, 29 dünya, 59-60 dünya və s. şəkildə ifadə edilir. Ocaq ipəyinin tel yoğunluğunu 59-60 dünyaya qədər bərabərləşdirmə olmuşdur ki, bu da hazırda sənayedə ipək sapın beynəlxalq yoğunluq vahidi olan 215 nömrəli sapla eyniyyət təşkil edir. Belə sapın iki teli parça və və kəlağayı toxumaq üçün gərəkli sapın dörd telinə bərabərdir.

Xam baramadan hasil olan 19-20 dünya ipək sapı ən möhkəm və etibarlı sap hesab edilir. Belə sap toxuculuq üçün istifadə edilmir. Ocaq baramaaçma üsulu ilə alınan tel kələflərini sabunlu qaynar suda qaynatdıqdan sonra onu ev şəraitində cəhrədə əllə və hərəkət etdirilən mildə burduqdan sonra iynə sapı, boyadıldıqda isə təkalduz və digər bədii tikmələrdə istifadə etmək olmuşdur. Bundan əlavə baramadan tel açılması prosesində baramanın sap verimi zəif hissəsi (köynək hissəsi də deyilir) uydur, baramaçının əlində qalan, çirkli hissəsi isə sarto adlandırılmışdır. Hər iki çıxar tullanmamış, onlar təmizlənib, yuyulub piləndikdən sonra əl cəhrəsində əyrilmiş, məişət və ev işlərində istifadə edilmək üçün sap kimi işlədilmişdir. Şəki sərtosu və uyduru XIX əsrin ikinci yarısından ta əsrimizin iyirminci ilinəcən Fransanın Marsel şəhərinə tacir çopur rəcəbalı və başqa sövdəgərlər tərəfindən satılmışdır. Bu tullantılardan fransızlar əla çeçunça parçaları toxumuşlar. Xam baramanın açılması prosesində boğulmuş qurdlar tullantı hesab edilir. Bu tullantıdan da xalq səmərəli istifadə etmiş, onu ev quşlarına yem kimi vermişlər. Belə qurdlarla yemlənən toyuqların yumurta vermə qabiliyyəti xeyli artır. Hazırda baramanın qurd çıxarını Şəki ipək istehsal birliyi xəz dəri yetişdirən sovxozlara və zooparklara satır. Barama qurdları ilə yemlənən heyvanların xəzi bu yem hesabına daha parlaqlaşır. Şəki faytonçuları öz atlarının gümrah və dəri tükünün parıltılı olması üçün onların yemlərinə barama qurdunun qurudulub döyülmüş qarışığını qatmışlar. Bütün bunlar onu göstərir ki, baramaçılığı heç bir tullantısı olmayan səmərəli, çox faydalı istehsal sahəsidir.

Belə bir faydalı xam mənbəyini başqa əllərə vermək, onun bəhrəsindən istifadə etməmək sadəcə səriştəsizlik, ağılsızlıq olardı. Məhz buna görə də barama qurdunun bəslədilməsindən hazır satlıq məhsul istehsalınadək bütün proseslər Şəkinin özündə icra edilmişdir. İpəkdən hazırlanan satlıq məhsullar arasında kəlağayının xüsusi çəkisi vardı. Bu şəhər kəlağayı toxuculuğuna görə birinci yerdə dayanırdı. Buranın kəlağayılarının milli koloriti, öz görkəmi, özünəməxsusluğu alıcıları heyran etməyə bilmirdi.

Şəkidə əl dəzgahı ilə kəlağayı toxunmasının 500 ilə yaxın tarixi vardır. Bu tarix qonşu Xanaabad və ümumən Ərəş mahalı toxuculuğu ənənələri ilə eyni yaşda, eyni xarakterdədir. Əgər Xanabad ipək

parça toxuculuğunun ən bariz nümunələri olan Qənavuz, Darayi, Alafa ilə şöhrətlənmişsə, Şəki isə özünün müxtəlif ölçülərdə olan ağ, qara, soğanı, innabı və s. kəlağıyaları ilə öyünmüşdür.

Azərbaycan qadınlarının milli baş örtüyü olan kəlağayı Şəkidən başqa Basqalda, Gəncədə Şamaxıda, Lahıcda, Ordubadda, Xanabadda da toxunmuşdur. Lakin hər yerin özünə görə kəlağayısı bir-birindən rəng, bəzək ünsürlərinə, toxunuş sapının yoğunluğu, nazikliyinə və b. xüsusiyyətlərə görə seçilmişdir. Məsələn, Şamaxının və Basqalın heyratı (çox rəngli, çox bəzəkli) kəlağıyaları Şəkinin ilanı yelən, ağ xalı, Qoşa yelənli, içgüllü qara, yelani yaşıl soğanı, innabı, ağ kəlağıyalarının eyni deyil və boyama keyfiyyətinə, ölçülərinə görə də Şəki kəlağıyaları fərqlənir. İki qat sapla (16020 dünya) toxunan və ölçüsü 170x170 sm olan Şəki kəlağıyaları ilə Gəncə kəlağyısı yarışa girə bilərdi. Belə kəlağayılar xüsusi sifarişlə hazırlanırdı. Şax durduğuna görə belə kəlağayılar qaraağac qabığına bənzədilirdi. Müharibə illərində qıtlıqla əlaqədar olaraq bu cür kəlağıyaları yorğan üzləri üçün istifadə edirdilər.

Şəki kəlağayıları örtülmə məqsədinə görə cürbəcür ölçülərdə, rənglərdə və naxışlarda hazırlanırdı. Yuxarıda xatırlatdığımız kimi 80x80 sm ölçüdəki xırda kəlağayılar, çirtmələr şal altından saçları yığıb bağlamaq, evdən başqa bir yerə gedəndə şala oturmaq lazım gəlməyən hallarda başı açıq qalmamaq üçün də çirtmələr həmişə başa bağlanırdı. Kiçik yaşlı qız uşaqları üçün cürbəcür rəngdə (əsasən innağı, abı, zoğalı) çirtmələr toxunulurdu. Oturuşmuş qaynanalar əsasən evdə başına çırtma bağlayırdalar. Hamamda çimib çıxdıqdan sonra qadınlar yaş dərəcələrindən asılı olmayaraq baş örtüklərinin altından çırtma bağlayırdılar ki, saçlar dağınıq görünməsin, başa soyuq vurmasın.

Ev işləri görərkən biş-düş zamanı, ocağın, təndirin ətrafında iş görəndə əl-ayağa dolaşmamaq, təhlükəsizlik xatirinə qadınlarımız 120x120 sm, 140x140 sm ölçüdə tünd rəngli kəlağayılar örtmüşlər. 150x150 sm, 160x160 sm ölçülü kəlağayılar isə evdən kənar xeyir-şər məclisləri zamanı istifadə edilmişdir. Ağ kəlağayıları gəlinlər, yetişmiş qızlar soğanı, zoğalı və innabı kəlağayıları orta yaşlı qadınlar, qara kəlağayıları isə ahıl, ağbirçəklər üçün münasib sayılmışdır. Yaşından asılı olmayaraq bütün qadınlar şər məclislərində, yaxınlarının və qohum-qardaşların fəlakətli, hüznlü günlərində qara kəlağayı örtmüşlər.

Kəlağayı papaq kimi namus, qeyrət rəmzi sayılmışdır. Əgər qadın bir-biri ilə döyüşən kişi xeylaqlarının qarşısına baş örpəyini açıb atarsa, vuruşanlar o saat əl saxlamalıdırlar.

Azərbaycanın hər yerində olduğu kimi Şəkidə də gəlin gətirilərkən gəlinin ağ kəlağayı və ya alafa örtməsi, gəlin maşınlarının qabağına ağ, soğanı, narıncı, zoğalı kelağayılar bağlamaq, məscidlərə, ziyarətgahlara niyyət baş tutduqda kəlağayı aparmaq, kasıblara, şikəstlərə kəlağayı pay vermək, rəhmətə gedənlərin cənazəsi üstünə kəlağayı salmaq və onu qəbiristanlıqda mollaya və qəbirqazana, sailə paylamaq, hüzn, matəm günləri evlərin, idarə və müəssisələrin qarşısından qara kəlağayılar asmaq və s. adət halını almışdır. Bu, onu göstərir ki, kəlağayı məişətimizdə necə geniş şəkildə özünə nüfuz qazanmışdır. Bu nüfuz, müqəddəslik nə ilə bağlıdır? Bunun səbəbləri çoxdur. Əvvəla, kəlağayı təmizliyin saflığın, halallığın təcəssümüdür. Onun ipəyi, toxunması, boyadılması, bir sözlə, hasil olub başa çatması hala əməklə, təmiz yaranışla əlaqədardır. Həm də kəlağayı ana, qadın kimi ulu varlığın baş örtüyüdür, onların abır, həyasının «mühafizəçisidir».

Kəlağayı örtmədə xalqın öz qayda – qanunları vardır. Qadın kəlağayını elə örtməlidir ki, dal gərdəni, sinəsi, üzü (yanaqları, buxağı) kişilərin diqqətini cəlb etməsin. Naməhrəmlərdən yaşınmaq üçün bu baş örtüyü daha münasibdir. Rahatlıqla üzə çəkmək, yenidən əvvəlki örtmə vəziyyətinə gətirmək üçün kəlağayının sürüşkənliyi, yüngüllüyü, qarışmaması imkanları var. Kəlağayı örtmək səhiyyə-sağlamlıq baxımından da sərfəlidir. Dumana, tüstüyə, toza, iyə, qoxuya və s. rast gəldikdə qadın kəlağayının dülüyü, ağzını, burnunun örtməklə bunların nəfəs yoluna daxil olmasının qarşısını alır, bir növ kəlağayı «əleyhiqaz» rolunu oynayır. Ağıza tutulmuş kəlağayı vasitəsilə nəfəsalma çətinləşmir, xoşa gəlməyən qoxunu, havanı «təmizləyib» orqanizmə verir.

Kəlağayı rəmzdir. Qadının abır, ismət örtüyü kimi müqəddəsdir. Qadının başındakı kəlağayını çəkib almaq, cırıb ayaq altına salmaq, oğurlamaq o ailənin namus-qeyrətinə toxunmağa bərabər sayılmışdır.

Oğlu və ya əri bir qəbahət iş tutanda qadınlarımızın dedikləri «sən mənim örpəyimi yerə soxmusan» ifadəsi ailənin şərəfi, ləyaqəti məsələləri durur. Bunların mühafizəçilərindən biri də kişi papağı kimi qadın örpəyi də namus, qeyrət simvoludur. Bunu da yada salmaq yerinə düşərdi ki, kəlağayı öz rəngləri ilə xeyir, şər, səadət və bədbəxtlik barədə müjdəçi, xəbərdaredici rolu oynayır. Bu baş örtüyünü «kələ ağını» (kəlağayı sözünün mənşəyi yəqin ki, öz ilk formasını «kəllə» + «ağı» söz birləşməsindən götürmüşdür) ata-baba təsəvvürünə görə müqəddəsləşdirən amillərdən birini yada salmaq olar. Kəlağayı onu örtənin başından üstə dayanan, ağıldan, kamaldan, təsəvvürdən üstə qərar tutan və insanla Allah arasındakı «məsafəni» qısalaşdıran geyim kimi də müqəddəs hesab edilmişdir. Başqa bir təsəvvürə görə kəlağayı «məlakələrin qanadlarıdır», onu həmişə təmiz, səliqəli, toz qonmayan yerlərdə boxçada, sandıqda saxlamışlar. Kəlağayını başqa paltarlara qarışdırıb yumamışlar.

Kəlağayı el-oba arasında rəğbət bəslənməsinin səbəblərindən biri də onun çətin zəhmətlə toxunub hazır vəziyyətə gətirilməsi prosesidir. Kəlağayı toxunub boyadıldıqdan və gülləndikdən sabunlu, sodalı qaynar suda qaynadılıb quruduldıqdan sonra hələ ona hazır məhsul demək olmaz. Ata-baba ustadların dediklərinə görə bu proseslərdən sonra kəlağayını hazır vəziyyətə gətirmək evə təzə gələn gəlinin nazını çəkməkdən ağırdır. Nədən ibarətdir bu «naz» çəkmə?

Rənglənmiş, güllənmiş, qurudulmuş kəlağayılar «kitab» şəklində qatlanıb press (məngənə) altında ən azı iki sutka qalmalı, oradan götürülüb mərmər daş üstündə ağac toxmaqla döyəclənməli, yenidən presə (məngənəyə) salınıb hər səkkiz saatdan bir çıxarılaraq pardaqlanmalı, 12 saat müddətli üçüncü presləmədən sonra kəlağayının «yetişdiyini» söyləmək onu satışa vermək olar.

Təssüf ki, hazırda sənaye üsulu ilə işləyən kəlağayı istehsalatlarında bu faydalı, gərəkli ata-baba texnologiyasından istifadə edilmir. Məhsul «yetişməmiş», «çiy » halda satışa buraxılır ki, bunlar keçmiş kəlağayılarının yerini vermir.

Şəkidə həm barama tədarükünün, ipək sap açışı və onun burulması, parça və kəlağayı toxunması, ipək məmulatının boyadılması və güllənməsinin mahir biliciləri yaşamışlar. Onlardan yapon Yaqubun, Törə Salamın, Hacı «Ağanın», Hacı Rəsul uşağı nəslinin, Qara İsmayılın, Qara Hacı İbrahimin, Hacı Lətifin, Koramal Hacı Rəsulun və b. adları hələ də el-oba tərəfindən unudulmamışdır. Tərə salam iş vaxtı hər bir fəhlədən dörd yüz qramdan artıq ipəksap açanı işdən çıxarırdı. Tez, tələsik işləməklə məhsulun keyfiyyətini aşağı salanları sahibkar sevməzdi. Buna görə də Yaponiyada və digər ölkələrdə Töra Salamın ipək sapı ad-sana minmişdi.

## ƏDƏBİYYAT

1. Ələkbərli Ə. Qərbi Azərbaycan. II c., Bakı, 2002.
2. Киясбекова А. Трудовые роли и статусы женщины в традиционных обществах народов Кавказа. Этнографическое обозрение 1997, № 4, с. 52.
3. Косвен М.О. Очерки по этнографии Кавказа. Журн. «Советская этнография», 1946, № 24.
4. Сегаль М.Л. По бывшему Шекинскому ханству Журн. «Кавказ», 1898, № 173.
5. Смирнова А. Свадебные обряды у мусульман Нухинского уезда, с. 180.

**ГУЛИЕВА НУРИДА**
***Старший научный сотрудник,к.и.н.***
***НИЦ «Азербайджановедения»***
***e-mail: nuridagulu@yahoo.com***

## ОСОБЕННОСТИ ПРОИЗВОДСТВО ШЕКИНСКОЙ КЕЛАГАЙЫ

### РЕЗЮМЕ

В данной статье говорится об особенностях Шекинской келагаи. Выясняется что, Шекинские женщины носили разноцветные келагаи. Келагаи был символом чистоты, чести и достоинства. В статье также изучены вопросы традиционной технологии по производству келагаи.

**GULIEVA NURIDA**
***The senior research assistant***
***"Azerbaijan Studies Centre"***
***e-mail: nuridagulu@yahoo.com***

## FEATURES SHEKINSKY KELAQAYI

### THE RESUME

In given article it is told about features Shekinsky kelaqai. It is found out that, womens of Shaky carried multi-colored kelaqai. Kelaqai was to symbols of cleanliness, honor and advantage. In article questions of traditional technology on manufacture kelaqai also are studied.

***Rəyçilər: t.e.d.,professor A.N. Mustafayev, t.e.d. T.M. Dostiyev***
***BDU-nin Tarix fakültəsi «Dünya azərbaycanlıları tarixi demoqrafiya» ETL-nin 6 sentyabr 2010-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 3 )***